UOT 75

***Türkan Abbasova***
***Azərbaycan Dövlət Rəssamlıq***
***Akademiyasının dissertantı***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** turkan.abbasli@mail.ru

# ƏMƏKDAR RƏSSAM ƏLİ VERDİYEVIN YARADICILIĞINDA MÖVZU VƏ JANR RƏNGARƏNGLİYİ

**Xülasə:** Respublikanın Əməkdar rəssamı Əli Verdiyev yaradıcılığı boyu müxtəlif mövzu və janrlarda əsərlər yaratsa da, "Savadsızlığın ləğvi" əsəri rəssama xüsusi şöhrət gətirmişdir. Yaradıcılığının erkən mərhələsində "sərt üslub"a üstünlük verən rəssamın əsərləri özünün dəqiq və aydın rəsmi ilə fərqlənir. Bu isə onun qısa müddətdə Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xətt əldə etməsini şərtləndirdi.

**Açar sözlər:** mövzu, janr, rəngarəng, məişət, əmək, portret.

XX əsrin ortalarından etibarən Azərbaycan təsviri sənətində geniş yayılan "sərt üslub"un özünəməxsus bədii prinsiplərini öz əsərlərində əks etdirən bir neçə görkəmli rəssam (Tofiq Cavadov, Tahir Salahov, Nadir Qasımov, Lətif Feyzullayev və b.) fəaliyyət göstərib ki, onlardan biri də Respublikanın Əməkdar rəssamı, professor Əli Verdiyevdir.

1936-cı ildə Bakı şəhərində anadan olan Əli Verdiyev ixtisas təhsilini əvvəlcə Bakıda Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində (1953-1958), daha sonra isə Leninqradda İ.F.Repin adına Rəssamlıq Akademiyasında (1958-1961) və V.İ.Muxina adına Ali Bədii-Sənaye məktəbində (1961-1967) almışdır.

Yaradıcılığının erkən mərhələsində "sərt üslub"a müraciət edən Əli Verdiyev bu səpkidə bədii-estetik dəyərlərinə görə fərqlənən müxtəlif əsərlər yaratmışdır. Lakin onun bu üslubda işləyən digər rəssamlardan fərqi ondan ibarət idi ki, əgər başqaları adi həyatdan götürülmüş süjetlərdə reallığı sərt tərzdə təsvir edirdilərsə, Əli Verdiyevdə bu bir qədər özünəməxsus lirik-romantik tərzdə öz həllini tapmışdır.

Əli Verdiyevin müxtəlif mövzu və janrlara müraciət etməsi məhz onun fərdi yaradıcılıq potensialını nümayiş etdirmək istəyi ilə bağlıdır. Daim yaradıcılıq axtarışında olan rəssamın erkən dövrü üçün onun bir-birindən maraqlı kompozisiya quruluşuna malik olan süjetli tabloları xüsusilə diqqət çəkir. Bu mənada onun "Savadsızlığın ləğvi" (1969),"Qızıl toy" (1971), "Cənnət və Cəhənnəmə gedən yol" (1973), "Xatirələr" (1980), "Qız it ilə" (1991), "Həyəcanlı gün" (1995), "Xoşbəxtlik" (1998), "Telefon" (2000), "Ana uşaqla" (1992) süjetli kompozisiyalarının adlarını çəkmək olar. Qeyd etdiyimiz bu əsərlər dərin məna-məzmun yükünə malik olmaqla bərabər eyni zamanda kompozisiyanın bütövlüyü ilə də seçilir.

Qeyd edək ki, Əli Verdiyev "1969-cu ildə respublika sərgisində "Savadsızlığın ləğvi" mövzusuna həsr olunmuş ilk süjetli kompozisiyasını nümayiş etdirdikdən sonra şöhrət qazanır. Bu tablo bizi Azərbaycanda qadın azadlığı uğrunda qızğın mübarizə aparılan 20-ci illərə aparır. Hadisə yəqin ki, kənd klubunda baş verir: üzünü görmədiyimiz müəllimə savadsız qadınlara elm aşılayır. "Rəssam yan-yana əyləşən qadınları tamaşaçıya yaxınlaşdırmaqla obrazların daxili aləmini üzə çıxarmağa çalışmışdır.

Kompozisiyada əhəmiyyətsiz olan heç bir detala yol verilmir. Rənglər də "xəsisliklə" işlədildiyindən şəklin koloriti "bütöv" və lakonikdir. Bu məziyyətlərinə görədir ki, Əli Verdiyevin ilk tematik əsəri ölkəmizdə, eləcə də xaricdə sovet incəsənəti sərgilərində nümayiş etdirildi və məhz bu əsərə görə gənc rəssama Azərbaycan komsomolunun mükafatı verildi" (1). Qeyd edək ki, kompozisiya və kolorit yetkinliyi ilə tamaşaçı diqqətini cəlb edən bu tablo bu gün də öz bədii dəyərini qoruyub saxlaya bilmişdir.

İlk uğurlu əsəri ilə sənətsevərlərin böyük marağını və inamını qazanan Əli Verdiyev qısa zamanda təsviri sənət məkanında imzası soraqlanan müəlliflərdən birinə çevrilə bilmişdir. 1971-ci ildə, Ümumittifaq sərgisində nümayiş etdirdiyi "Qızıl toy" (1971) əsərinin timsalında bu həqiqəti bir daha görmək olar. Nikbin əhval-ruhiyyəli kompozisiyanın əsas mərkəzini sevincli anlarını keçirən gənc və qocaların bədii görüntüsü təşkil edir. "Qızıl toy" iştirakçılarının sevinc bəxş edən baxışları, ifa edib oynayanların dinamik hərəkətləri, əsərin şux koloriti onu seyr edən tamaşaçıda nikbin ruh yaradır. Təsadüfi deyil ki, Əli Verdiyevin bu əsəri yerli sərgilərlə yanaşı beynəlxalq sərgilərdə də (Çexoslovakiya, Bolqarıstan, Macarıstan, Yuqoslaviya, İtaliya və b.) böyük maraqla nümayiş etdirilmişdir.

Əli Verdiyev yaradıcılığı boyu "sərt üslub"dan qaynaqlanan lirik-romantik ovqatlı mənzərələr də yaratmışdır. "Yaz fəsli" (1968),"Abşeron bağı" (1969), "Dağlar" (1977),"Aralıq dənizi" (1983),"Şıxov yolu" (1993),"Kənddə axşam" (1994),"Qürub" (1995),"Kapadokiya" (1996),"Qədim İstanbul" (1998), "Qədim evlər" (1998),"Mənzərə" (2011) əsərləri bu qəbildən olan zəngin bədii dəyərləri özündə yaşadan maraqlı tablolardır. Rəssam bu mənzərə əsərlərində Azərbaycan təbiətinin füsunkarlığını göstərməklə yanaşı qonşu ölkənin – Türkiyənin də bir sıra görməli yerlərini bədii görüntüyə gətirmişdir.

Rəssamın yaradıcılığında tarixi janr xüsusi yer tutur. Onun bu janrda yaratdığı "Təslim" (1965), "Qələbə. 1945-ci il." (1975), "Döyüş" (1984), "1941-ci il, 22 iyun" (1985), "Babək üsyanı" (1987), "Rahib Məmmədovun igidliyi" (1988), "Qırmızı ordu" (1989) tabloları xalqımızın qəhrəmanlıq keçmişini canlandıran yüksək bədii dəyərə malik tarixi mövzulu əsərlərdəndir.

1965-ci ilə aid olan "Təslim" əsəri özünün ictimai dəyərinə və aktuallığına görə seçilir. Təslim olmuş alman əsgərləri əslində tabloda müəllifin tamaşaçılara çatdırmaq istədiyi əsas fikir üçün vasitə idi. Əsərdə bir neçə alman əsiri gözünü yerə dikib və əllərini yuxarı qaldırıblar. Bu isə təslim olmanın və müharibənin sonunu xarakterizə edir. Üzlərindən məğlubiyyətin bütün faciəsi oxunan bu adamlar sanki nəzərimizdə ikinci dünya müharibəsinin dəhşətlərini canlandırır.O dövr üçün gənc olan rəssam mövzunun mühümlüyündən və çətinliyindən heç də çəkinməmişdir. İstər bədii-texniki, istərsə də bədii-estetik dəyərinə görə bu tablo Azərbaycan rəngkarlığında müharibə mövzusuna həsr olunmuş ən uğurlu əsərlərdən biridir. Hətta Xalq rəssamı Tahir Salahov məqalələrinin birində bu haqda vurğulayır: "Təslim" tablosu haqqında görkəmli sənətkarlarımız Mikayıl Abdullayev və Toğrul Nərimanbəyovun fikirləriyadımdadır. Onlar da rəssamın yaxşı kompozisiya qurmaq bacarığını kəskin rəng maneralarını,, forma ifadəliliyini və müasirlik duyğusunu qeyd edirdilər" (5)

Rəssamın tarixi janrda yaradılmış digər uğurlu bir əsəri də "Qələbə. 1945-ci il." əsəridir. "1975-ci ildə faşizm üzərində tarixi qələbəmizin 30 illiyi münasibətilə Moskvada açılmış Ümumittifaq sərgisində Əli Verdiyevin "Qələbə. 1945-ci il." adlı çoxfiqurlu kompozisiyası göstərildi. Əvvəlki tablolarından fərqli olaraq rəssam bu kompozisiyada bayram şənliyini geniş, əhatəli planda təsvirə alır..." (1) Əsərdə təsvir olunan hərbi geyimli əsgərlər, qələbə günündə meydana toplaşan qadınlar, uşaqlar – hamı qələbə sevincini yaşayır. Xüsusilə bunu vurğulayaq ki, rəssam tabloda əks etdirdiyi sevincli anları ona baxan tamaşaçıda da yarada bilməsinə nail olmuşdur.

Tablolarda nikbin əhval-ruhiyyənin müşahidə olunması Əli Verdiyevin əmək mövzusunda yaratdığı əsərlərdə də özünü büruzə verir. Bu mənada "Əmək qələbəsi" (1977) əsəri xüsusi əhəmiyyət kəsb edir. Əmək mövzusuna həsr olunmuş bu çoxfiqurlu kompozisiyada əmək qəhrəmanlarına duyduğu hisslərin yığcam rənglərlə təqdimatı kifayət qədər duyğulandırıcı idi. Əsərin bədii həllində Əli Verdiyevinöz yaradıcı dəst-xəttini müəyyənləşdirmək yönündəki axtarışlarının qabarıqlığı Yüksək dinamik və plastik həlli ilə diqqəti cəlb edən kompozisiyada qəhrəmanlıq və təntənə ruhu üstünlük təşkil edir.Mövzunun bədii həlii və obrazların təsviri monumental səpgidədir.

Yaradıcılığı boyu bir çox mövzu və janrlara müraciət etsə də Əli Verdiyevin yaradıcılığında müxtəlif xarakterli insanlarım – əmək qəhrəmanlarının ("Traktorçu İsmayıl" (1972), "İnşaatçı" (1977), "Sosialist əməyi qəhrəmanı Akif Amanov" (1980), "Sosialist əməyi qəhrəmanı Fərman Salmanovun portreti" (1982), "Dülgər İdris" (1984), elm və mədəniyyət xadimlərinin - Azərbaycan Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti nəzdində yaradılmış Teleradio Akademiyasının rektoru Etibar Babayevin(1980), yazıçı-nasir Fərman Kərimzadənin (1980), şair, yazıçı-dramaturq Hüseyn Cavidin (1983), özbək şairi Əlişir Nəvainin (1984), siyasi-ictimai xadimlərin - Nəriman Nərimanov və inqilab rəhbəri Vladimir İliç Leninin (1988), Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin və Abdulla Gülün (2007), eləcə də rəssamın müasirlərinivə doğmalarını əks etdirən portretlər xüsusilə

seçilir. Bu qəbildən olan əsərlərdə rəssam təsvir etdiyi şəxsiyyətlərin yalnız zahiri cizgiləri ilə kifayətlənməyib, onların daxili aləmini də özünəməxsus forma-biçimdə bədii görüntüyə gətirmişdir.

Rəssamın yaradıcılığında həmkarlarının – sənət dostlarının da portretinə yer verilir. Macar rəssamı O.Dunçaq (1968), "Rəssam Mikayıl Abdullayevin portreti" (1973), Tahir Salahov və abstrakt rəssam Q.Libizova həsr olunmuş "İki rəssam" əsəri (1990) bu qəbildəndir.

Əli Verdiyev portret janrında yaratdığı rəngkarlıq əsərlərinin timsalında realizmin ifadə imkanlarını demək olar ki, bütünlüklə nümayiş etdirə bilib. Bunu rəssamın həm tutumuna görə süjetli tablo kimi qəbul olunan, həm də bu janrın klassik nümunələrini xatırladan digər portretləri də təsdiqləyir. Eyni zamanda rəssamın palitrasında sərt və ciddi rənglərlə yanaşı, lirik və şairanə, zərif rənglər əhəmiyyətli yer tutur. Bu mənada onun həyat yoldaşı Adiləni (1982, 2005), qızı Zemfiranı (1976, 1984)və eləcə də türk qadınlarını özündə əks etdirən "Afaq xanım" (1996), "Fatma" (2000), "Selda" (2005) adlıportret əsərlərini göstərmək olar.

Nəticə etibarilə qeyd edək ki, Əli Verdiyevin demək olar ki, bütün əsərlərində insan psixologiyasına nüfuzetmə bacarığı xüsusilə qabarıq hiss olunmaqdadır. Bu isə onun yaradıcılıq potensialının nə qədər böyük olmasını şərtləndirir.

Çoxşaxəli Əli Verdiyev sənətinin şöhrəti Azərbaycan sərhədlərini çoxdan aşıb, Belə ki onun əsərlərinin Almaniya, Çexoslovakiya, Bolqarıstan, Macarıstan, Moskva, Türkiyə və bir çox xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş etdirilməsi rəssamın beynəlxalq nüfuzundan xəbər verir. Bunu da qeyd edək ki, 1982-ci ildə rəssama "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adının verilməsi də onun yaradıcılığına verilən yüksək qiymətin təzahürüdür.

**Ədəbiyyat:**


1. Əli Verdiyev. Azərbaycan Lenin komsomolu mükafatı laureatı. "Gənclik". Bakı, 1980.
2. Kərimova R. Azərbaycan sovet portret boyakarlığı. Bakı, 1964. 180 s.
3. Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı: İşıq. 1992. 344 s.
4. Nəcəfov M. Azərbaycan rəngkarlığı bu gün. Bakı, 1985. 36 s.
5. Salahov T. Yolun başlanğıcı. "Ədəbiyyat və incəsənət"qəz., 1970, 5 dekabr. Səh 5.
6. Verdiyev Ə. // Kataloq – Bakı: Kommunist, 1980.
7. Verdiyev Əli. Kataloq. Bakı, 2011. 96 s.
8. Габибов Н.Д. Живопись советскогоАзербайджана. Издательство «ЭЛМ». Баку, 1982. 168 ст.



**Туркан Аббасова**


**Жанровая и тематическая многоаспектность творчества Заслуженного художника Али Вердиева**

**Резюме**


Творчество Заслуженного художника Азербайджана Али Вердиева представляет собой гармоничный синтез вдохновения, таланта и актуальной художественной реакции на эпохальные события. Жанровая определенность в его творческом наследии характеризуется многообразием тем и сюжетов, охватывающих широкий диапазон событий и лиц отечественной истории, культуры, общественной жизни. Статья анализирует также стилистическое решение полотен мастера, тяготевшего на ранних этапах к «суровому стилю», и его постепенный переход к своеобразной лирико-романтической интерпретации.



**Ключевые слова:** жанр, тема, Али Вердиев, суровый стиль, труд.



**Turkan Abbasova**


**Thematic multidimensionality of the creativity of the Honoured Artist Ali Verdiyev**

**Summary**


Creativity of the Honoured artist of Azerbaijan Ali Verdiyev is a harmonious synthesis of inspiration, talent and an actual artistic reaction to epoch-making events.Genre identification of his creative heritage

is characterized by a variety of themes covering a wide range of events and persons of national history, culture, public life. The article is also analyzing the stylistic decision of master's paintings, which reflects the "severe style" in the early stages, and its gradual transition to a peculiar lyrical and romanticinterpretation later.

**Keywords:** genre, theme, Ali Verdiyev, severe style, work.

**Məqalənin redaksiyaya daxil olma tarixi:**
**05.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə**
**tarixi: 13.10.2017Məqalənin çapa qəbul olunma**
**tarixi: 17.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent MehribanN ovruzova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**